Xalıq Yahudov

Rafiq İsgəndərov

UOT: 330.1; JEL: I39

Müasir şəraitdə insan kapitalının inkişafında dövlətin iştirakının genişləndirilməsi istiqamətləri

Xülasə

Məqalədə insan kapitalının əhəmiyyəti və sosial-iqtisadi inkişaf baxımından zərurəti tədqiq olunur. Ölkədə insan kapitalının inkişaf mərhələləri və bu sahədə əldə olunan nəticələr qiymətləndirilir.

Açar sözlər: *sosial-inkişaf, insan kapitalı, iqtisadi yüksəliş*

Giriş

İctimai-sosial durumundan asılı olmayaraq bütün dövrlərdə cəmiyyətin inkişafının əsas istiqamətləri insan kapitalından necə istifadə olunmasını xarakterizə edir. Xalq təsərrüfatı sahələrinin davamlı surətdə inkişaf etdirilməsi dövlətin strateji planlanlarının tərkib hissəsi olaraq, mərkəzi idarəetmə təşkilatları tərəfindən həyata keçirilir. İnsan kapitalının qorunub saxlanması və onun inkişaf istiqamətləri ölkə miqyasında aparılan iqtisadi siyasətin əsasında müəyyənləşdirilərək aparıcı dünya dövlətləri içərisində özünə layiq mövqenin qazanılması məqsədinə xidmət edir. Məhz həmin amilləri nəzərə almaqla dövlət səviyyəsində qəbul olunmuş sosial iqtisadi proqramların həyata keçirilməsi insan kapitalına istinad etməklə bərabər, eyni zamanda onun strateji inkişafı üçün etibarlı istiqamətdir. Respublikanın son on illikdə sürətli inkişafını təmin edən insan kapitalı, əsas aparıcı qüvvə olmaqla ali idarəetmə qurumları tərəfindən davamlı və dinamik şəkildə qayğı ilə əhatə olunmuşdur. Müxtəlif idarəetmə səviyyələrində hazırlanan və qəbul olunan iqtisadi-sosial xassəli dövlət inkişaf proqramları, idarə qərarları ölkə iqtisadiyyatını dünya ölkələrinin təsərrüfat qurumlarına inteqrasiyasını sürətləndirmişdir. Bununla bərabər əsas istiqamətlər içərsində əhalinin sosial şəraitinin yaxşılaşdırılması və dövlət səviyyəsində insan kapitalının qorunub saxlanılması respublikanın inkişaf strategiyasının aparıcı meyarına çevlilmişdir.

Müasir şəraitdə iqtisadi inkişaf meyilləri və istiqamətləri

Yer üzünün ən qüvvətli və şüurlu canlısı olan insan - müqəddəs varlıq olmaqla, malik olduğu yaşamaq hüququnu qoruyub saxlamaqla, azadlığı uğrunda daim mübarizə aparmaqla və firavan həyat qurmaqla sosial tərəqqinin ən yüksək dərəcəsindən bəhrələnmək arzularını həmişə özünün mənəvi varlığına çevirməyi bacarmalıdır. Müasir şəraitdə dünya miqyasında qlobal inkişaf və insan kapitalının qorunub saxlanılması, onun siyasi-iqtisadi-sosial düşüncələrində cəmiyyət üzvlərinin maddi-rifahının yüksəldilməsi və inkişaf etdirilməsindən başqa heç bir ali məqsədi ola bilməz. Ictimai münasibətlərin dünya dövlətləri əhalisinin sülh və qarşılıqlı anlaşma şəraitində yaşamasını təmin edən önəmli amillər içərisində insanın əsas aparıcı qüvvə kimi tanınmasıdır. İnsanların bütün istiqamətlərdə inkişafı üçün dövlət səviyyəsində kapital qoyluşlarının artırılması yaxın gələcəkdə sağlam nəslin formalaşmasının və onların maddi-rifah halının yüksəldilməsinin etibarlı vasitəsidir. Cəmiyyət üzvlərinin artmaqda olan tələbatlarının vaxtında və tam həcmdə ödənilməsi istiqamətində mərkəzi idarə etmə qurumlarının işləyib hazırladıqları təşkilati, sosial və iqtisadi proqramlar mahiyyətinə və əhatə dairəsinə görə çox böyük siyasi əhəmiyyətə malikdir. Məhz cəmiyyət üzvlərinin maddi-rifah halının yaxşılaşdırılmasına istiqamətlənən iki (2008-2012 və 2014-2018-ci illər) "Reqionların sosial iqtisadi inkişaf proqramları" Respublika əhalisinin maddi-rifahının

© *Xalıq Yahudov i.f.d., dos., Rafiq İsgəndərov i.f.d., dos. Azərbaycan Texniki Universiteti*
© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

əvvəlki illərlə müqayisə olunmayan dərəcədə dünya standartlarına uyğunlaşdırılması məqsədini daşıyır. Azərbaycan Respublikasının ictimai-iqtisadi-sosial həyatında cərəyan edən geniş miqyaslı dəyişikliklər dünya ölkələri içərsində misli görünməmiş əsaslı inkişaf istiqamətləri son illərdə ölkə Prezidenti, Cənab İlham Əliyev tərəfindən aparılan məqsədyönlü və düşünülmüş strateji siyasətin tərkib hissəsidir. Dövlət səviyyəsində aparılan iqtisadi-sosial islahatlar, özünün aktuallığı və müasirliyi ilə seçilən bu tipli yanaşma ilk növbədə insan kapitalından daha səmərəli istifadə olunmasına əsaslanmaqla XXI əvvəllərindən başlayan irəliləyiş sürətli inkişafı təmin edən əsas təməl daşlarından sayılmalıdır. Keçən əsrin son onilliyində dünyanın aparıcı dövlətlərinin iştirakı ilə bağlanmış "Əsrin müqaviləsi"-nin reallaşdırılmasında insan amilinə istinad olunması məhz iqtisadi inkişafı təmin edən istiqamətlərin düzgün seçimi ilə müəyyənləşdirildiyini göstərir, çünki neft və ona yaxın olan karbohidrogenlərdən istifadə yalnız insan kapitalının yaxından iştirakı olmadan aparılması qeyri-mümkün olmaqla həmin maddi dəyərlər ölü sərvət kimi hafizələrdə həkk olunur. Məhz bu dövrdə insan kapitalından məqsədyönlü istifadə olunmaqla həmin sahənin, xüsusən energetika və neft-qaz sahələrinin sürətli inkişafı digər sənaye müəssisələrinin təşəkkül tapması istiqamətində aparıcı lokomotiv rolunu yerinə yetirmişdir. Həmin tarixi günlərdə respublika üçün kifayət qədər qərəzli və mərkli düşüncə nümayiş etdirən daxili və xarici bədxahlar bütün vasitələrdən istifadə edərək sübut etməyə çalışırdılar ki, Bakı-Tibilisi-Çeyhan boru kəmərinin çəkilməsi mümkün olan iş deyildir və nefti olan üşüncü ölkənin bu layihədə işkirak etməməsi borunun neft məhsulu ilə tamamilə doldurulmamasına gətirib çıxaracaqdır. Lakin 1994-ci il 20 sentyabrda bir sıra xarici şirkətlərin iştirakı ilə imzalanan "Əsrin müqaviləsi" - Xəzərin Azərbaycan bölməsindəki neft yataqlarının işə salınması sonrakı onilliklərdə ölkə büdcəsinə milyard manatlarla maliyyə vəsaitlərin daxil olmasına imkan yaratmış oldu.

Respublika üçün oıduqca vacib olan davamlı inkişaf istiqamətləri içərisində ilk növbədə Avropanın ən böyük infrastruktur layihəsi sayılan "Cənub qaz dəhlizi" üzərində məqsədyönlü fəaliyyət proqramının həyata keçirilməsi yeni uğurlara aparan yolun davam etməsini göstərir. Azərbaycan və Avropa ölkələri üçün olduqca səmərəli sayılan həmin layihənin əsas hədəfi "Şahdəniz"qaz yatağının qısa müddətdə tam işlənməsilə yanaşı Cənubi Qafqazdan keçən boru kəmərinin neft nəql etmə gücünün artırılması təşkil edir. "Şahdəniz" qaz yatağının istismara verilməsindən bu günədək 66 milyard kubmetr qaz və 17 milyon ton kondensat hasil olunmuşdur. Respublikanın iqtisadi cəhətdən sürətli inkişafı üçün olduqca əlverişli olan TANAR-Transatlantik enerji təchizatı layihəsini həyata keçirməklə bərabər, TAP-Transadratik istiqamətində neft nəql etməyə imkan verən xəttin tikintisində bərabər hüquqlu tərəfdaş kimi iştirak etməkdir. Əlbəttə bu naliyyətlətlərin sayını xeyli artırmaq mümkündür, çünki son onillikdə ölkə miqyasında bütün sahələrdə inkişafın sürəti dörd faizdən aşağı olmamışdır və həmin yüksəliş insan ehtiyatları kimi güclü kapitaldan istifadə etməklə əldə edilmişdir.

Dünyada baş verən böhranlar və maliyyə çatışmamazlığı şəraitində ölkənin neft-qaz sənaye sahələrinin davamlı inkişafı ilə yanaşı qeyri-neft bölmələrində aparıcı istehsal, iş və xidmətlər dairəsinə catdırılması dövlət qurumları tərəfindən həyata keçrilən uğurlu strateji balanslaşdırma siyasətinin tərkib hissələrindən biridir. Məhz gələcəyə istiqamətlənən bu siyasətin mərkəzində insan kapitalından daha məqsədəyönlü istifadə edərək, yaxın gələcəkdə onun maddi-mənəvi imkanlarını artırmaq və digər ölkələrə nümunə ola biləcək firavanlıq içərisində yaşayan vətəndaş cəmiyyətini qurmaq məqsədini daşıyır. Mahiyyətcə görülən işlərin əsasını regionda digər dövlətlərlə müqayisədə daha sürətlə inkişaf etməkdən yox, dünya miqyasında müxtəlif ərazilərdə yerləşən böyük və kiçik dövlətlərdə yaşayan əhali quruplarından fərqli olaraq ölkə əhalisi üçün yüksək həyat tərzini yaratmaqla insan

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

kapitalının dövlət səviyyəsində qorunub saxlanmasını təmin etməkdir. Vətəndaşların sağlamığının qorunması, onların zəruri sosial-məişət şəraitinin beynəlxalq norma və standartlar səviyyəsinə çatdırılmasına dövlət büdcəsindən hər il milyon manatlarla maliyyə vəsaitinin ayrılması insan kapitalının layiqli həyat tərzinə malik olmasına istiqamətləndiyini görməmək qeyri- mümkündür.

Ölkə vətəndaşlarının soaial müdafiəsi və əhali məşqulluğu

Dövlət səviyyəsində ölkə vətəndaşlarının sosial müdafiəsi ilə kifayətlənməyən aidiyyatı qurumlar - Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Hazirliyi "Məşğulluq haqqında" qanunun müddəalarına əsasən sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların kateqoriyalarını müəyyənləşdirməklə onların maddi - rifah hallının yaşılaşdırılmasında əsaslı dönüş yaratmışdır. Nazirlər Kabinetinin "Sosial müdafiəyə ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi Qaydası"na uyğun olaraq, həmin kateqoriyalardan olan şəxslər üçün müəssisələrdə xüsusi iş yerlərinin ayrılması həyata keçirilir. Ali hakimiyyət qurumlarının insanın fəal cəmiyyət üzvi kimi yetişməsini nəzərdə tutan iri miqyaslı strateji planları və onları formalaşdıran düşüncələri həqiqətən Azərbaycanın gələcək inkişafını sürətləndirməyə yönəldilib. Gələcək inkişafı təkcə yüksək texnologiyaların tətbiqi dairəsinin genişləndirilməsi deyil, həm də yeni-yeni yüzlərlə çoxmərtəbəli və çoxtəyinatlı sosial təlabatları ödəmək qabiliyyətinə malik rahat mənzillərin tikintisilə yanaşı, əhalinin orta ömür müddətinin təbii surətdə artırılması və savadlı gənclərin sayının ildən-ilə artırılması təşkil edir. İnsan kapitalının dövlət səviyyəsində qorunub saxlanması və onların dünya sivilzasiyasına daha çevik və sürətlə qovuşması məqsədilə öz ana dili ilə yanaşı bir neçə xarici dildə danışmaq bacarığına yiyələnməsi uğurlu gələcək sahibi olacaqlarına böyük inam yaradır. Ölkə əhalisinin 35-40 faizini təşkil edən gənclərin insan kapitalının əsas hərəkətverici qüvvəsi olduğunu nəzərə alaraq hazırda cəmiyyət üzvləri arasında xarici dillərin öyrənilməsinə olan maraqları yaş səviyyəsindən asılı olmayaraq sürətlə artmaqda davam edir. Bütün bunlar əyani şəkildə onu göstərir ki, ölkənin uğurlu inkisaf strategiyası əsas etibarilə iqtisadiyyatdan daha çox insan kapitalı və onun mənəviyyatının müasir prioritet amillərlə zənginləşməsi və dəyərləndirilməsi istiqamətində təşkilatı işlərin silsiləvi surətdə davam etdirilməsi dövlətin sosial siyasətinin tərkib hissəsinə çevrilmişdir. Sahibkarlıq fəaliyyətinin dövlət qurumları tərəfindən müdafiə olunması və onların iştirakı ilə istər ultra müasir inzibati və yaşayış binalarının və mehmanxana-istirahət komplekslərinin, istərsə də qabaqcıl informasiya kommunikasiya texnologiyalarının istifadəyə verilməsi əhalinin yaradıcılıq imkanlarının artmasına, ölkədaxili və xarici əlaqələrin genişləndirilməsinə fərdi maraqlarının əsas təminatçısı kimi yanaşmanı önəmli etmişdir. İstedadlı insanlar, xüsusən bir neçə əcnəbi dil bilən müasir gənclər ölkənin ən dəyərli insan ehtiyatları olmaqla, onların simasında sağlam düşüncə və təfəkkür formalaşır, öz ardınca daha böyük insan axınını inkişaf strategiyasını əsl həqiqətə çevirmək istiqamətlərində səfərbər edirlər.

Ümumi inkişafın əsas məbəyi neft-qaz sənayesinin inkişafı ilə bağlı olmadığını göstərən ölkə başçısı Cənab İlham Əliyev gələcək perspektivin xalq təsərrüfatı sahələrinin genişmiqyaslı şaxələndirilməsindən ibarət olduğunu dəfələrlə qeyd etmişdir. Təkcə onu göstərmək lazımdır ki, ölkənin qeyri-neft sahələrində son on illikdə ümumi daxili məhsulun həcmi üç dəfə armış və ölkənin valyuta ehtiyatlarının artmasına əhəmiyyətli təsir etmişdir. Əmək ehtiyatlarından səmərəli istifadə və insan kapitalının qorunub saxlanması strategiyasının tərkib hissəsi olmasını nəzərə alaraq ölkənin ümumi inkişafında regionların iştirakı zaman və işçi qüvvəsi baxımından dövlət üçün böyük əhəmiyyət kəs edir. Nəhəng sənaye müəssisələrinin ölkənin paytaxtında və onun ətrafında yerləşməsi əhali sıxlığı yaratmaqla bərabər, həlli bəzən çox mürəkkəb olan təchizat, kommunikasiya, rabitə,

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

nəqliyyat, maliyyə və maşın-texnologiya, əmək vasitələrini istismar edən müstəxəsis təminatı ciddi və əsas məsələlərdəndir. Gələcəkdə həmin məsələlərin böyük çətinliklər yaratmaması nəzəri cəhətdən onların ləğv olunması bir o qədər də vaxt tələb etməsə də, əslində həmin amilləri öz məcrasına qaytarmaq əhəmiyyətli dərəcədə maddi-maliyyə və insan kapitalını əlavə oıaraq cəlb etməklə daxili və xarici bazarlarda qazanılmış mövqelərin itirilməsilə nəticələnməsi arzu olunan amillərdən sayıla bilməz. Son on illikdə ölkə iqtisadiyyatının inkişaf sürətinin təhlilini aparan elmi tədqiqat mərkəzləri məhz siyasi sabitlik amilinin aparıcı amil olduğunu müəyyən etmişdir. Birmənalı şəkildə göstərmək lazımdır ki, müstəqil respublikamız dünya iqtisadiyyatında layiqli yer tutmaq üçün infraquruluş sahələrində qətiyyətlə və inamla əsaslı kəmiyyət-keyfiyyət dəyişiklikləri apararaq yeni iqtisadi yüksəlişə nail olmaqla ehtibarlı nüfuz darirəsini qazanmışdır. Məqsədəyönlü strategiya ölkəni durğunluq dövrünün əsas bəlasından aparıcı dövlətlərin vassalına çevrilməkdən xilas etmişdir.

Modernləşdirmə xətti istiqamətində yüzlərlə yeni məktəb, sağlamlıq mərkəzləri, sosial-bərpa obyektləri inşa edilərək əhalinin istifadəsinə verilmidir. Beynəlxalq əlaqələrin və ictimai münasibətlərin müasir tələblər müstəvisində inkişaf etdirilməsində mühün yer tutan insan amilinin hərəkət dairəsinin genişləndirmək məqsədi ilə şəhər və region mərkəzlərində sənaye obyektləri, energitika şəbəkələri, texnoparklar işə salınmış, əhalinin daha sıx yaşadığı qəsəbələr, kənd rayonlarının mərkəzləri arasında yüz kilometrlərlə avtomobil yolları çəkilmişdir. Azərbaycanın qısa müddət ərzində əldə etdiyi etibarlı yüksəliş sayəsində, onunla müxtəlif sahələrdə hər bir problemin vaxtında və yüksək nəticələrə nail olmağın təmin olunması məqsədi ilə iqtisadiyyatın şaxələndirilməsinə və inkişaf istiqamətlərində çoxqütblülüyün təmin olunmasına xüsusi diqqət yetirməyə başlamışdır.

İnsan kapitalı bilavasitə qlobal inkişafını təmin edən varlıq olmaqla, özündə ciddi müdafiə olunmaq və inkişafını sürətləndirilən dövlət qayğısına daim etiyacı mövcuddur. İnsan təkcə maddi istehsal fəaliyyəti ilə deyil, həm də müasir dövrün qlobal problemlər qurumunun aparıcı ünsürlərindən biri olan elmi-texniki tərəqqinin önündə getməklə cəmiyyət üzvlərinin artmaqda davam edən gündəlik tələbatlarının ödənilməsində daha məhsuldar iştirak etməlidir. İnsan kapitalının peşə və ixtisaslar üzrə ölkə regionlarında istifadə olunması dövlət proqramlarının tərkib hissəsi olmaqla bərabər, onların əməyindən yalnız strateji istiqamətləri nəzərdə tutan sahələrdə istifadə olunması iqtisadi-sosial münasibətlərin dünyavi sivilizasiyalara çevik şəkildə transformasiya olunmaq deməkdir. İnsan kapitalı vasitəsilə qlobal problemləri həll etməklə cəmiyyət özünə daha uğurlu gələcək və dünya birliyinə daxil olan ölkələrin məhsuldar qüvvələrini stateji istiqamətlərdə tərəfdaşlığa və inkişafa səfərbər edir.

Nəticə

Ölkə üzrə iqtisadi-sosial inkişafın təmin olunmasında işçi fəallıgının yüksəldilməsi müstəhna əhəmiyyət kəsb etməklə, insanların maddi-rifah halının durmadan yaxşılaşdırması məqsədini daşıyır. Həmin prosesin davamlı olması istehsal-təsərrüfat sahələrində məhsuldarlıqın artırılmasına, sosial-iqtisadi proqramların yerinə yetirilməsinə və strateji inkişafın əsas meyarı olan insan kapitalının qorunub saxlanılması, mövcud imkanlardan daha məqsədəyönlü istifadə olunması günün vacib məsələlərindəndir. İnsan kapitalından səmərəli istifadə olunması cəmiyyətin inkişaf prespektivlərinə əhəmiyyətli təsir göstərməklə istehsal işçi münasibətlərinin müasir tələblər səviyyəsində formalaşmasını həyata keçirir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Ədəbiyyat

1.“Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”. Bakı 2014.
2. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti (reallıqlar və perspektivlər). Bakı, İqtisad, 2009.
3. Milli iqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Bakı, Elm, 2006.
4. Abbasov S.M. Azərbaycan-dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı, 2005.

Халиг Ягудов
Рафиг Искендеров

Направления расширения государственного участия в развитие человеческого капитала в современных условиях

Резюме

В статье исследуется значимость и необходимость человеческого капитала с точки зрения социально-экономического развития. Оцениваются этапы развития человеческого капитала в стране и достигнутые результаты в этой области.

Ключевые слова: *социальное развитие, человеческий капитал экономический развитие*

Khalıq Yakudov
Rafiq İskendərov

The expanding direction of the government field in the development of the human capital in the modern situation

Abstract

In the article human capital and the importance of the study of need in terms of socio-economic development. Stages of development of human capital in the country and achievements in this field are estimated.

Keywords: *social development, the human capital, economic growth*

Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov
Daxil olub: 06.07. 2017.
Çapa qəbul olunub:12.07.2017.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az